# Təbib

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. http://www.amu.edu.az № 08 (1691) 30 aprel 2019 - cu il Qiymәti 50 qәpik


# Bakıda Formula 1 SOCAR Azərbaycan Qran-Prisi başa çatıb

## Azərbaycan Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva yarışa baxıblar

**Aprelin 28-də Bakıda Formula 1 üzrə dünya çempionatının dördüncü mərhələsinin – SOCAR Azərbaycan Qran-Prisinin əsas yarışı keçirilib. Əvvəlcə pilotların paradı və açılış mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Formula 1 üzrə dünya çempionatının dördüncü mərhələsinin–SOCAR Azərbaycan Qran-Prisinin əsas yarışına baxıblar.

Formula 1 Azərbaycan Qran-Prisinin paytaxtın Azadlıq meydanında keçirilən möhtəşəm açılış mərasimi maraqlı anları ilə yadda qalıb.

Paradda və himn mərasimində pilotları azyaşlılar müşayiət ediblər.

* * *

Dövlət himninin ifa olunmasından sonra Formula 1 Azərbaycan Qran-Prisinin 51 dövrədən ibarət əsas yarışı başlayıb.

* * *

Sonra qaliblərin mükafatlandırılması mərasimi keçirilib.

Əvvəlcə qalib idmançının və komandanın şərəfinə müvafiq olaraq Finlandiyanın və Almaniyanın dövlət himnləri səsləndirilib.

Qran-Prinin qalibi Valtteri Bottasa kuboku Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təqdim edib.

Dövlətimizin başçısı Konstruktorlar kubokunu "Mercedes" komandasının nümayəndəsinə təqdim edib.

İkinci yerin sahibi, "Mercedes"in sürücüsü Luis Hamiltona kuboku Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov, üçüncü yeri tutan "Ferrari" komandasının sürücüsü Sebastian Fettelə isə kuboku Azərbaycan Avtomobil Federasiyasının prezidenti Anar Ələkbərov təqdim ediblər.

Beləliklə, Formula 1 üzrə dünya çempionatının dördüncü mərhələsindən - Azərbaycan Qran-Prisindən sonra pilotların mübarizəsinə 87 xalla "Mercedes"in sürücüsü Valtteri Bottas liderlik edir. Komanda yoldaşı Luis Hamilton ondan 1 xal geri qalır. "Ferrari" komandasının almaniyalı pilotu Sebastian Fettel 52 xalla üçüncü, "Red Bull Racing Honda"nın hollandiyalı pilotu Maks Ferstappen 51 xalla dördüncü, "Ferrari"nin Monakodan olan sürücüsü Şarl Lekler isə 47 xalla beşinci pillədə qərarlaşıblar.



## BU SAYIMIZDA





### BDU-nun nəzdində Tibb fakültəsinin yaradılmasının 100 illik yubileyinə həsr olunmuş konfrans keçirilib

2

### Akademik Zərifə Əliyevanın anadan olmasının 96-cı ildönümü ilə əlaqədar anım tədbiri keçirilib




3



### Hindistanın ölkəmizdəki səfiri ATU-nun qonağı olub

3

### ATU ilə İstanbul Cərrahpaşa Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb

3



### Böyük Elmi Şuranın növbəti iclası keçiriləcək

**Bu gün ATU- nun inzibati binasının akt zalında Böyük Elmi Şuranın növbəti iclası keçiriləcək. İclasda "Azərbaycan Tibb Universitetinin İctimai səhiyyə fakültəsində tədrisin vəziyyəti və gənc mütəxəssislərin hazırlanmasının yaxşılaşdırılması işində kollektiv qarşısında duran vəzifələr" barədə İctimai səhiyyə fakültəsinin dekanı, professor Anar Ağayevin məruzəsi dinləniləcək. Bundan başqa gündəlikdə duran müxtəlif məsələlər müzakirə olunacaq və müsabiqə məsələləri öz həllini tapacaq.**

**Böyük Elmi Şuranın gedişatı barədə qəzetimizin növbəti sayında daha ətraflı məlumat veriləcək.**

**Aprelin 18-də Azərbaycanda Tibb Universitetinin ilkin maddi-texniki və professor-müəllim kontingenti bazasını təşkil edən Tibb fakültəsinin 100-illik yubileyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfrans keçirilib.**

# BDU-nun nəzdində Tibb fakültəsinin yaradılmasının 100 illik yubileyinə həsr olunmuş konfrans keçirilib

Tədbir iştirakçıları əvvəlcə universitetin foyesində ümummilli Lider Heydər Əliyevin büstünü ziyarət etdilər. Dövlət Himnimiz səsləndirildikdən sonra konfransın işinə start verilib.

Azərbaycan Tibb Universitetində düzənlənən tədbirin aparıcısı Əli Əliyev bu möhtəşəm tarixi hadisə haqqında Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan Bakı Dövlət Universitetinin ilk rektoru Vasili Razumovskinin belə yazdığını xatırladıb: “Universitetin təsisi haqqında qərar layihəsinin son redaksiyası gurultulu alqışlar altında qəbul edildi və Azərbaycan öz ali maarif ocağını əldə etdi. Türk xalqının tarixinə yeni, parlaq səhifə yazıldı. Avropa ilə Asiyanın sərhədində yeni məşəl şöləndi. Biz bu böyük tarixi hadisənin şahidi olduğumuza görə özümüzü xoşbəxt hesab edirik”.



Bir əsrlik tarixi olan Bakı Dövlət Universitetinin digər fakültələri kimi bizim də bu bayramı qeyd etməyə haqqımız var. Çünki ilk dəfə yaradılan bir neçə fakültədən biri də tibb fakültəsi olmuşdur.

Konfransda açılış nitqi ilə çıxış edən Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli ölkə prezidenti cənab İlham Əliyevin Bakı Dövlət Universitetinin yaradılmasının 100 illik yubileyinin dövlət səviyyəsində keçirilməsi haqqında Sərəncam imzaladığını söyləyib. Bildirib ki, Bakı Dövlət Universitetinin yaradılmasının bir əsrlik yubileyinin keçirilməsi həm də Azərbaycan Tibb Universiteti üçün əlamətdar hadisədir: “Əvvəla ona görə ki, bu universitet bütövlükdə vətənimizin, millətimizin ilk ali təhsil ocağıdır və ötən illər ərzində təhsilimizin, elmimizin inkişafına güclü təkan veribdir. İkinci səbəb ondan ibarətdir ki, millətimizi maarifləndirən, ölkəmiz üçün fasiləsiz olaraq tibbi və pedaqoji kadrlar hazırlayan bu təhsil müəssisəsinin yaradılmasında ixtisasca həkim olan mütəxəssislərin böyük rolu olub. Digər tərəfdən BDU-nun ilk fakültələrindən birinin və ən böyüyünün Tibb fakültəsi olması diqqəti cəlb edən vacib amillərdəndir”.

Rektor G.Gəraybəyli Bakı Universitetinin nəzdindəki Tibb fakültəsinin tarixi, burada dərs deyən ziyalı və alimlər, onların ölkədə tibb təhsilinin inkişafı naminə gördüyü işlər haqqında da danışıb. Qeyd edib ki, Bakı Universitetinin (indiki Bakı Dövlət Universitetinin) təşkilatlanmasında, Azərbaycanın çətin bir dövründə onun fəaliyyətə başlamasında və inkişafında həkim-professorlardan Vasili Razumovski, İvan Şirokoqorov, Sergey Davidenko, milli kadrlardan Mirəsədulla Mirqasımov, Mustafa bəy Topçubaşov, Əziz Əliyev, Tağı Şahbazi, Xudadatbəy Rəfibəyli, Nadir Məmmədli, Möhsün Qədirli (İsrafilbəyli) və başqalarının böyük xidmətlərinin olması danılmaz həqiqətlərdəndir: “Bakı Dövlət Universitetini bizə doğmalaşdıran, onunla biz həkimlərin, tibb işçilərinin, səhiyyə mütəxəssislərinin üzvi vəhdətdə olmasını təmin edən amillərdən biri də ondan ibarətdir ki, BDU-nun ilk rektoru görkəmli həkim-cərrah professor V.Razumovski olub. O, eyni zamanda Tibb fakültəsinin Normal anatomiya kafedrasına rəhbərlik edib”.



Professor İ.Şirokoqorovun o dövrdə həm BDU-nun Tibb fakültəsinin ilk dekanı, həm də həmin fakültənin Patoloji anatomiya kafedrasının müdiri vəzifələrini yerinə yetirdiyini, 1927-ci ildən etibarən Tibb fakültəsinin dekanı vəzifəsinin gənc və bacarıqlı həkim Nadir Məmmədliyə tapşırıldığını xatırladan natiq BDU-nun yaradılmasının 100 illik yubileyinin həm onun Tibb fakültəsinin, həm də bu fakültənin nəzdində təşkil edilən kafedraların yubileyi kimi səciyyələndirib.

Bu tarixi həm də Azərbaycan tibb elminin, tibb təhsili sisteminin ən möhtəşəm salnaməsi adlandıran professor G.Gəraybəyli Tibb fakültəsinin mövcud olduğu 11 il ərzində 27 doktorluq dissertasiyasının müdafiə edildiyini vurğuladı: “Onlardan 7 nəfəri Azərbaycanlı mütəxəssis, həmin mütəxəssislərdən biri isə ilk qadın həkim-oftalmoloq Sona xanım Vəlixan olub (1928). Sona xanım Vəlixanın elmi işləri Nobel mükafatına təqdim edilib. Lakin II Dünya Müharibəsinin başlanması ilə əlaqədar iş yarımçıq qalıb. 11 il ərzində Tibb fakültəsini cəmi 1407 nəfər bitirib. Bu müddətdə vətənə şərəflə xidmət edən Tibb fakültəsi Azərbaycan səhiyyəsinin, Azərbaycan tibb elmi və tibb təhsili sisteminin, bütövlükdə dövlətimizin və xalqımızın tükənməyən milli sərvətidir”.

1930-cu il mayın 9-da BDU-nun Tibb fakültəsinin maddi-texniki bazası əsasında Azərbaycan Dövlət Tibb İnstitutunun yaradıldığını vurğulayan rektor milli kadrların hazırlanmasında tanınmış yazıçı-həkim Tağı Şahbazi, görkəmli dövlət və elm xadimi Əziz Əliyev və məşhur fizioloq Abdulla Qarayevin xidmətlərini yüksək qiymətləndirib.

“Hazırda ölkə Prezidenti cənab İlham Əliyevin, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın, Səhiyyə naziri Oqtay Şirəliyevin göstərdikləri diqqət və qayğı sayəsində Azərbaycan Tibb Universiteti özünün yüksəliş dövrünü yaşayır” - deyən rektor G.Gəraybəyli çıxışının sonunda bir daha yubiley münasibətilə hər kəsi təbrik edərək konfransın işinə uğurlar arzulayıb.

Sonra Tibb fakültəsinin 100 illik yubileyinə həsr olunmuş sənədli video-çarxı nümayiş etdirilib.

Bu tarixi hadisə münasibətilə ATU-nun kollektivini təbrik edən Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev hər iki universitetdə yeniliklər aparıldığını, əməkdaşlıq üçün böyük potensial olduğunu, bütün işlərin Vətən və dövlət naminə aparıldığını söyləyib.

Türkiyənin Cərrahpaşa Universitetinin rektoru, professor Aydın Nuri çıxışında Azərbaycan və Türkiyə arasında tibb təhsili sahəsindəki əlaqələrdən söhbət açıb.

Sonra ATU-nun tələbələrindən ibarət mahnı və rəqs kollektivlərinin çıxışları izlənilib.



Fasilədən sonra və növbəti gün “Təbabətin aktual problemləri – 2019” mövzusunda keçirilən konfransda ATU-nun Histologiya, embriologiya və sitologiya kafedrasının müdiri, professor Eldar Qasımov, Şüa diaqnostikası və şüa terapiyası kafedrasının müdiri, dosent Məlahət Sultanova, Ümumi cərrahiyyə və anesteziologiya kafedrasının müdiri, professor Elçin Ağayev və digərlərinin məruzələri dinlənilib.

O cümlədən, ürək-ağciyər reanimasiyaları zamanı çətinliklər, koronar şuntlama əməliyyatlarında anesteziya kimi məsələlər ətrafında müzakirələr aparılıb.

Konfransda Türkiyə, Rusiya, İsraildən də qonaqlar iştirak ediblər.

**Arif MƏMMƏDLİ**

# Akademik Zərifə Əliyevanın anadan olmasının 96-cı ildönümü ilə əlaqədar anım tədbiri

**Aprelin 26-da Azərbaycan Tibb Universiteti və Nəsimi Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 96-cı ildönümü ilə əlaqədar anım mərasimi keçirilib.**

Azərbaycan Tibb Universitetində təşkil edilən tədbirdə bu ali təhsil ocağının rektoru, professor Gəray Gəraybəyli çıxış edərək bildirdi ki, akademik Zərifə Əliyevanın Azərbaycan tibb elminin inkişafında misilsiz xidmətləri olub. Rektorun sözlərinə görə, hər bir böyük ali tədris ocağı öz məzunları ilə məşhurlaşıb: "Bu nöqteyi-nəzərdən ATU-nun adını yüksəkliklərə qaldıran dünya şöhrətli məzunların arasında akademik Zərifə xanım Əliyevanın xüsusi yeri var. Zərifə xanımın elmi pedaqoji və həkimlik fəaliyyəti haqqında çox söz demək olar. Bir faktı xüsusi vurğulamaq istərdim ki, Zərifə xanımın istər elmi, istərsə






də həkim kimi fəaliyyəti Tibb Universiteti ilə birbaşa bağlıdır. Zərifə xanım 1942-ci ildən 1947-ci ilə qədər burada təhsil alıb.

Universiteti bitirdikdən sonra təbabətin ən incə sahələrindən olan oftalmologiya ixtisasına yiyələnmək üçün Moskvaya gedib. Moskvada təhsilini başa vuraraq Azərbaycana qayıdıb və burada geniş pedaqoji fəaliyyətlə məşğul olub. 1960-cı ildə namizədlik dissertasiyasını müdafiə edib".

Rektor G.Gəraybəyli akademik Zərifə Əliyevanın şərəfli ömür yolundan bəhs edib. Rektor bildirib ki, Zərifə Əliyeva müasir Azərbaycan tarixində mühüm yeri olan iki prezidentin həyatında vacib rol oynayıb. O, görkəmli alim olmaqla yanaşı, dünya şöhrətli siyasi xadim, müdrik və dahi şəxsiyyət Heydər Əliyevin ömür-gün yoldaşı, İlham Əliyev kimi mütərəqqi bir dövlət başçısının anası olub. Zərifə xanım yaddaşlarda əsl ziyalı alim, mehriban və qayğıkeş ana kimi qalıb.

Anım tədbirində ATU-nun Oftalmologiya kafedrasının müdiri, professor Paşa Qəlbinur, kafedranın dosenti Solmaz Əliyeva, kafedranın rezidenti Fərid İskəndərov çıxış edərək Zərifə Əliyeva haqqında fikirlərini bölüşüblər.

Nəsimi rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov Z.Əliyevanın gözəl insan və istedadlı həkim olduğundan danışdı: "Bu gün bu tədbirdə iştirak etmək, həkimlərin qarşısında çıxış etmək məni çox təsirləndirir. Elə təəssürat yaranır ki, sanki Zərifə xanımın ruhu bizi görür. Çünki bura onun doğma məkanıdır".

A.Əsgərov Zərifə Əliyevanın keçdiyi ömür yolunun sonrakı nəsillər üçün misilsiz örnək olduğunu qeyd edib, alimin xalqımız qarşısında misilsiz xidmətlərini xatırladıb.

Tədbirdə Zərifə xanım Əliyevaya həsr olunmuş film nümayiş olunub. Daha sonra görmə qüsurlu uşaqlara eynəklər hədiyyə edilib.

Anım tədbiri Bakı Musiqi Akademiyasının I kurs magistri Orxan Cəlilovun ifası ilə davam edib.

# Rektor dissertant və doktorantlarla görüşüb

**Aprelin 15-də Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli ATU-da dissertant və doktorant adını qazanmış şəxslərlə görüş keçirib.**





Professor G.Gəraybəyli bildirib ki, universitetə doktoranturaya və dissertanturaya daxil olmuş yeni mütəxəssislərlə görüşmək artıq ənənə halını alıb. Belə görüşlərin əsas məqsədi ATU-nun yeni nümayəndələri ilə yaxından tanış olmaqdır: "Siz doktorantura və dissertantura dövründə universitetimizin əməkdaşları hesab olunursunuz. Bundan sonra siz istər universitetdə təşkil olunan konfranslarda, istərsə də digər elmi- kütləvi tədbirlərdə iştirak edə bilərsiniz. Ona görə də universitetdə aparılan islahatlar və eləcə də elmi tədqiqatlar sahəsində tətbiq olunan dəyişikliklər haqqında məlumatlı olmalısınız. Eyni zamanda, biz də sizi narahat edən məsələlərdən xəbərdar olmalıyıq".

Sözünə davam edən professor G.Gəraybəyli Azərbaycanda elmin inkişafına dövlət səviyyəsində qayğı göstərildiyini qeyd edərək, prezident İlham Əliyevin sərəncamina əsasən, elm sahəsində çalışan işçilərin yeni attestasiya qaydalarının hazırlandığını xatırlatdı. Professor G.Gəraybəyli bu il qəbul qaydalarının sərtləşdirilməsinə baxmayaraq, ingilis dili istiqamətində gənc kadrların sayının artmasından məmnunluğunu bildirdi. Rektor universitetin gənc əməkdaşları sırasına yeni qoşulanlara gələcək işlərində, həmçinin elmi fəaliyyətlərində uğurlar arzuladı.

Qeyd edək ki, bu il 29 nəfər ATU-nun dissertantı, 22 nəfər isə doktorantı olmaq imkanı qazanıb. Görüşdə ATU-nun elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov, doktorantura və dissertantura şöbəsinin müdiri, professor Nailə Sultanova da iştirak ediblər.

# ATU ilə İstanbul Cərrahpaşa Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb

**Aprelin 18-də Azərbaycan Tibb Universitetində qonaq olan İstanbul Cərrahpaşa Universitetinin rektoru Aydın Nuri rektor Gəray Gəraybəyli ilə görüşüb. Görüş zamanı iki universitet arasında əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb.**

ATU-nun rektoru, professor Gəray Gəraybəyli ali məktəblərin ortaq maraqlarını təşviq etmək baxımından memorandumun yararlı olacağını bildirib. Onun sözlərinə görə, hər iki müəssisə qarşılıqlı korporativ tədris və elmi-tədqiqat fəaliyyətini reallaşdırmaqda maraqlıdır. Bunun üçün işlək mexanimzlərin yaradılmasına ehtiyac var: "Biz qardaş Türkiyə universitetləri ilə əməkdaşlıq sənədi imzaladıqda, bu sənəddə real hədəflərin qoyulmasının tərəfdarı oluruq. Tələbə və rezidentlərimiz, həkim və müəllimlərimiz üçün belə əməkdaşlığın olması çox vacibdir. Xüsusilə də, Türkiyə universitetlərinin tibb fakültələri ilə rezident mübadiləsində sıx əməkdaşlığımız mövcuddur. İmzaladığımız müqavilə qarşılıqlı elmi işlərin aparılması prosesinə böyük təkan olacaq".



Professor G.Gəraybəyli ATU-da xeyli sayda xarici ölkələrdən gəlmiş tələbələrin təhsil aldığını, onlar arasında Türkiyədən gənclərin olduğunu da bildirdi. Rektorun sözlərinə görə, "Ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın hədəflərinə əsasən ATU-da beynəlxalq ikili diplom proqramlarının tətbiqi və doktorantura səviyyəsi üzrə Azərbaycan vətəndaşlarının seçiminin təkmilləşdirilməsi üzrə işlərə başlanılıb. Bunlar da ATU-nun beynəlxalq səviyyəli mütəxəssis və tədqiqatçıların yetişdirilməsində rolunu daha da gücləndirəcək.

Türkiyənin İstanbul Cərrahpaşa Universitetirektoru, professor doktor Aydın Nuri hazırda universitetdə 42 min tələbənin təhsil aldığını, ali məktəbdə yeni struktur dəyişikliklərinin aparıldığını bildirdi: "Cərrahpaşa artıq bir markaya çevrilib. Tibb təhsili sahəsində çox irəliləyişlər əldə etmişik. İnanıram ki, əməkdaşlığımız sayəsində bir-birimizə hər bir sahədə yardımçı ola biləcəyik".

Sonra Azərbaycan Tibb Universiteti ilə İstanbul Cərrahpaşa UniversitetiUniversiteti arasında anlaşma memorandumu imzalandı. Sənədə əsasən birgə tədris və təhsil fəaliyyəti, doktorluq dərəcəsi üzrə tələbə mübadiləsi və birgə rəhbərlik altında doktorluq dissertasiyasının yazılması üzrə əməkdaşlıq, akademik və elmi sahələrdə əməkdaşlıq nəzərdə tutulur. Bundan əlavə, sazişdə ali məktəblərin birgə layihə və tədqiqatlar aparması, diplomaqədərki və diplomdansonrakı tələbələrin mübadiləsi, elmi işçilərin və tədris heyətinin mübadiləsi, Akademik nəşrlər və elmi sənədlərin mübadiləsi ilə bağlı fəlaliyyətlər də öz əksini tapıb.

Görüşdə ATU-nun elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov, ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev, beynəlxalq əlaqələr şöbəsinin müdiri, assistent İkram Rüstəmov və ATU-nun Tədris Cərrahiyyə Klinikasının dializ şöbəsinin müdiri Barat Yusubov da iştirak ediblər.

# Hindistanın ölkəmizdəki səfiri ATU-nun qonağı olub

**Aprelin 17- də Hindistanın Azərbaycandakı səfiri Şri B.Vanlalvavna ATU-nun qonağı olub, rektor və tələbələrlə görüşüb.**





Səfirlə görüş zamanı ATU-nun rektoru, professor Gəray Gəraybəyli hörmətli qonağa universitetdə ATU-da təhsil alan xarici tələbələrə göstərilən diqqət və qayğıdan söhbət açıb, onların rahat təhsil almaları üçün yaradılmış şərait barədə ətraflı məlumat verib: "Tibb Universiteti Azərbaycanda ən çox xarici tələbə cəlb edən ali məktəblərdən biridir. Universitetimizdə ümumilikdə 31 ölkədən gələn tələbələrimiz var. Sizin təmsil etdiyiniz ölkəyə gəlincə isə hazırda ATU-da 35 hindistanlı tələbə təhsil alır. Xarici tələbələr üçün ayrıca yataqxanamız da var. Orada əcnəbi tələbələrin yaşaması üçün hər cür şərait yaradılıb".

Sözünə davam edən rektor bildirdi ki, ATU ölkəmizdə yeganə ali tibb təhsili verən bir ali məktəbdir. ATU-ya xarici tələbə qəbulu artıq yeni üsulla - Skype vasitəsilə, intervü ilə həyata keçirilir. Professor G.Gəraybəyli universitetə qəbul olunan xarici tələbələrin ilk öncə hazırlıq kursu keçdiyini və bu prosesdən sonra I kursa daxil olduğunu qonaqların diqqətinə çatdırıb.

Səfir Şri B.Vanlalvavna Tibb Universiteti ilə tanışlıqdan məmnun olduğunu və bu görüş üçün yaradılan şəraitə görə təşəkkürünü bildirdi. Cənab Şri B.Vanlalvavna qeyd etdi ki, Hindistanın Azərbaycanla rəsmi dövlət münasibətləri yüksək səviyyədədir. Hər iki ölkə arasında günü-gündən inkişaf edən bu qarşılıqlı əlaqələr səhiyyə və təhsil sahəsində də gücləndirilməlidir: "Az öncə universitetinizin müasir tədris binaları, klinikaları ilə yaxından tanış olduq. Bizim tələbələrə göstərdiyiniz diqqət, qayğı və dəstəkdən məmnunuq. Çox istərdik ki, Hindistandakı Tibb Kollecləri ilə Azərbaycan Tibb Universiteti arasında yaxın münasibətlər olsun".

Görüşdə ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev bu ali təhsil müəssisəsində təhsil alan hindistanlı tələbələrin dərsə davamiyyəti və onların təhsildə qazandıqları uğurlar, ictimai həyatdakı aktivlikləri haqqında məlumat verib. Görüş zamanı gələcəkdə iki ölkə arasında baş tutacaq tələbə mübadiləsi ilə bağlı da fikir mübadiləsi aparılıb.

Cənab Şri B.Vanlalvavnanın başçılıq etdiyi səfirlik nümayəndələri həm də ATU-da təhsil alan bir qrup hindistanlı tələbələrlə də görüşüblər. Səfir tələbələrlə tanışlıq zamanı onların problemləri ilə maraqlanıb və bir sıra məsələlər haqqında söhbət edib. Tələbələrlə görüşdə ATU-nun xarici tələbələrlə iş üzrə dekanı Qorxmaz Əhmədov da iştirak edib.

**ATU-nun mətbuat xidməti**

# Rektor bu dəfə II kurs tələbələri ilə qeyri-rəsmi görüş keçirib

**Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli tələbələrlə görüşlərini davam etdirir. Görüşlərin məqsədi tələbələri narahat edən məsələlərlə tanış olmaq, onlara tədris prosesinin və universitet həyatının daha rahat keçməsi üçün lazımi dəstək verməkdir.**

Universitet rəhbərinin bu məqsədlə keçirdiyi növbəti görüş aprelin 22- də II kurs tələbələri ilə baş tutub.



Professor G.Gəraybəyli xatırladıb ki, o rektor təyin olunduğu vaxtdan etibarən bu görüşləri keçirir. Tədricən görüşlərin formatı dəyişib, daha səmimi, açıq söhbətlər aparılıb: «Hətta qəbul günlərimdə də professor-müəllim heyətinin üzvləri ilə yanaşı, tələbələri



də qəbul edirəm. Daim sizləri dinləməyə hazıram”.

Professor G.Gəraybəyli rektor təyin olunduqdan sonra tədris proqramlarının, tələbələrin qiymətləndirmə və tədrisin keyfiyyətinin artırılması istiqamətində işlər görüldüyünü deyib: “İlk növbədə xarici tibb fakültələri ilə sıx əməkdaşlıq etmişik. Çalışırıq ki, gələcəkdə tələbələrimiz başqa ölkə universitetlərinə transfer olunduqda çətinliklə qarşılaşmasınlar, ikili diplom proqramlarının yaranmasına kömək göstərək”.

Rektor çıxışında qeyd edib ki, artıq üç ildir ki, universitetdə keçirilən imtahanlarda açıq tipli suallar olur, yay istehsalat praktikası isə semestr ərzində keçirilir. Bu ildən etibarən isə aralıq qiymətləndirmə sistemi işə salınıb ki, bu da tələbələrin obyektiv qiymətləndirilməsinin şəffaflığına böyük təsir göstərir.

Görüş zamanı tələbələr tədris sisteminin daha da təkmilləşdirilməsi üçün müəyyən təkliflər irəli sürüblər. Bu təkliflərin bir qismi artıq universitet rəhbərliyi tərəfindən I kurslarda tətbiq olunur. Tələbələr çıxışlarında imtahan suallarının azaldılması, dərs proqramında təməl fənlərə daha çox vaxt ayrılması, mühazirələrin daha dolğun keçməsi üçün müəyyən təkliflər səsləndiriblər. Söhbət zamanı dərsliklərin yenilənməsi, imtahan dövründə kitabxananın gərgin iş rejiminə keçməsi, imtahanlar üçün konspektlərin hazılranması ilə bağlı fikirlər də irəli sürülüb. Tələbələr həmçinin gələcəkdə magistraturada təhsil almaq istədikləri digər ixtisaslardan da danışıblar. Bəzi məsələlərin həllinə dair rektor tərəfindən yerindəcə göstəriş verilib.

# Professor Əhməd Abasquliyevin yubiley tədbiri keçirilib

**Aprelin 19-da ATU-nun Tədris Terapevtik Klinikasında tanınmış alim, görkəmli pedaqoq, əməkdar elm xadimi, professor Əhməd Əlibaba oğlu Abasquliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş konfrans keçirilib. Konfrans Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, Azərbaycan Tibb Universiteti, Azərbaycan Psixiatriya Assosiasiyasının birgə təşkilatçılığı ilə baş tutub.**



Yubiley tədbirində ATU-nun rektoru, professor Gəray Gəraybəyli açılış nitqi ilə çıxış edərək Əhməd Abasquliyevin psixiatriya sahəsində doktorluq dissertasiyası müdafiə etmiş və professor adı almış ilk azərbaycanlı alim olduğunu deyib. Onun psixiatriya elminə verdiyi töhfələrdən danışan rektor G.Gəraybəyli görkəmli alim haqqında xatirələrini də bölüşüb. Rektor yüksək insani keyfiyyətlərə malik olan Ə.Abasquliyevin əziz xatirəsinin onu tanıyanların qəlblbində daim yaşayacağını və onun psixiatriya elminin inkişafı naminə göstərdiyi əvəzsiz xidmətlərin unudulmayacağını bildirib: “Rəsmi çıxış etmədən, qəlbimdə və yaddaşımda olan Əhməd Abasquliyevdən danışmaq istəyərdim. 27 il öncə psixiatriya kafedrasına baş laborant



vəzifəsinə gəldikdə, burada sanki ikinci ailəmi tapdım. Kafedranın ağsaqqalı Əhməd Abasqulyevin sayəsində kollektiv arasında çox səmimi və mehriban bir mühit formalaşmışdı. Görkəmli alim, böyük pedaqoq və bacarıqlı həkim olan Əhməd Abasquliyev çox dərin zəkaya və yüksək mədəniyyətə xas insan idi”.

Sonra Azərbaycan Tibb Universitetinin psixiatriya kafedrasının professoru Nadir İsmayılov professor Əhməd Abasquliyevin keçdiyi həyat yolu və zəngin yaradıcılığı haqqında tədbir iştirakçılarına geniş məlumat verib.

Tədbirdə professor Ə.Abasquliyev haqqında fotosessiya da nümayiş olunub.

Xatirə çıxışlarında respublikanın baş psixiatrı professor Teymur Qafarov, tibb elmləri doktoru, professor Nadir Əliyev, tibb elmi üzrə fəlsəfə doktoru, əməkdar həkim Mayıl Tağıyev, gözəl insan, görkəmli alim Əhməd Abasquliyev haqqında fikirlərini bölüşüblər.

Sonda mərhum alimin nəvəsi Zaur Əhmədzadə çıxış edərək babasına göstərilən diqqətə görə universitet rəhbərliyinə, həmçinin, tədbirin təşkilatçılarına və iştirakçılarına ailəsi adından dərin təşəkkürünü bildirib.

# Türkiyəli rektor ATU-nun Tədris Cərrahiyyə Klinikası ilə tanış olub

**Azərbaycan Tibb Universitetində ziyarətini davam etdirən İstanbul Cərrahpaşa Universitetinin rektoru, professor Aydın Nuri aprelin 19-da universitetin rezident, dissertant və doktorantları ilə görüşüb.**



ATU-nun Tədris Cərrahiyyə Klinikasında keçirilən görüşdə professor doktor Aydın Nuri elmi işlərin yazılması və hazırlanması qaydaları haqqında mühazirə oxuyub. Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

Aydın Nuri həmçinin ATU-nun Tədris Cərrahiyyə Klinikasının rəhbərliyi ilə görüşüb. Həmçinin, klinikanın bölmələrini gəzib, burada tələbələr və xəstələr üçün yaradılan şəraitlə tanış olub. Klinikanın direktoru, professor Surxay Hadıyev Cərrahpaşa Universitetinin nümayəndələrinə rəhbərlik etdiyi qurumun fəaliyyəti haqqında məlumat verib. O, qeyd edib ki, Tədris Cərrahiyyə Klinikasında diaqnostik və cərrahi istiqamətdə 20 şöbə və 18 kafedra fəaliyyət göstərir. İl ərzində burada 2800 tələbənin, 400-dən çox rezidentin, 20-dən artıq doktorantın cərrahi ixtisas fənləri üzrə təhsili ilə 40 professor, 80 dosent, 120 tibb üzrə fəlsəfə doktoru məşğul olur.

Görüşdə ATU-nun Elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov, ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev və beynəlxalq əlaqələr şöbəsinin müdiri Qorxmaz Əhmədov da iştirak ediblər.



# İctimai Nəzarət Şurası növbəti reydini keçirib

**Aprelin 26-da Azərbaycan Tibb Universiteti Rektoru yanında İctimai Nəzarət və Məsləhət Şurasının üzvləri universitet kafedralarında növbəti reyd-yoxlamalar keçiriblər.**



Şura üzvləri Tədris Terapevtik Klinikasında yerləşən bir sıra kafedralarda olublar, dərslərin gedişini izləyiblər. Şuranın sədri, millət vəkili, həkim-qastroenteroloq İlham Məmmədovun sözlərinə görə, hər bir kafedrada dərslərin illik iş planına əsasən təsdiq edilmiş proqram üzrə aparılması və müəllimlərin bu plana uyğun fəaliyyət göstərdikləri müəyyən olunub.

Şura üzvləri həmçinin universitetin IV-VI kurs tələbələriylə görüşüblər. Görüş zamanı tələbələr tədrisin keyfiyyətinin daha da yaxşılaşdırılması üçün təkliflər səsləndiriblər. O cümlədən, gələcəkdə respublikamızda tibbi sığortanın tətbiqi, təhsilin rezidentura pilləsi ilə bağlı da müzakirələr aparıldı.

Ümumilikdə, İctimai Nəzarət və Məsləhət Şurasının üzvləri bildiriblər ki, reyd zamanı ATU-da son illər aparılan islahatların mühüm nəticə verdiyinin növbəti dəfə şahidi olublar.

Yoxlamada Şuranın sədri, millət vəkili İlham Məmmədovla yanaşı, şura üzvləri – Milli Qeyri Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni, ATU-nun əczaçılığın texnologiyası və idarəçiliyi kafedrasının baş müəllimi, “Gənc vətəndaş” İctimai Birliyinin sədr müavini Aidə Bəndəliyeva, tələbə-dekan Məhərrəm Amilli iştirak ediblər.

**ATU-nun mətbuat xidməti**

# Mütəxəssislərimiz Polşada 27-ci Avropa Psixiatriya Konqresində iştirak ediblər

**Polşanın paytaxtı Varşava şəhərində "Keçid dövründə psixiatriya: yeni modellər, məqsədlər və çağırışlar yolunda" şüarı altında 27-ci Avropa Psixiatriya Konqresi keçirilib. Avropa Psixiatriya Birliyi (EPA) tərəfindən təşkil edilən tədbirə klinik psixiatrlar, tədqiqatçılar və psixi sağlamlıq sahəsində maraqlı olan səhiyyə təşkilatlarının rəhbərləri qatılıb.**




Beynəlxalq konqersdə Azərbaycan Tibb Universitetinin psixiatriya kafedrasının əməkdaşları – professor Zəfər Əliyev, assistentlər Seymur Hacıyev və Ceyhun Məmmədzadə də iştirak edib.

Konqresin məqsədi psixiatriya, psixologiya, sosial iş və klinik sınaqlar sahəsində bir sıra mövzularda diskussiya və təhsil forumlarının inkişafına kömək etməkdir. Tədbirdə psixofarmakologiyada sübuta əsaslanan təbabətin təkmilləşdirilməsi, icma səviyyəsində psixi sağlamlıq sistemlərinin tətbiqi, elektron psixi sağlamlıq və profilaktika proqramlarına xüsusi diqqət yetirilib.



Konfransın sonunda tədbir iştirakçıları arasında ətraflı fikir və təcrübə mübadiləsi aparılıb.

# Türkiyəli professor rezidentlər üçün növbəti mühazirəsini deyib

**Aprelin 17-də Türkiyənin Qazi Universiteti Tibb fakültəsinin cərrahi kafedrasının professoru, dr. Mustafa Kerem ATU-nun rezidentləri üçün növbəti dəfə "Kəskin pankreatitmədəaltı vəzin iltihabı" xəstəliyi mövzusunda mühazirə ilə çıxış edib.**





Seminar haqqında qəzetimizə məlumat verən ATU-nun Tədris Cərrahiyyə Klinikasının rezidentlər üzrə məsul şəxsi, I cərrahi xəstəliklər kafedrasının assistenti, t.ü.f.d. Azər Hümmətov bildirib ki, professor dr.Mustafa Keremin təşəbbüsü ilə hər həftənin III günləri ATU-nun rezidentləri üçün cərrahiyyə ixtisası üzrə elmi- praktik seminar keçirilir. Seminarın mövzusu öncədən rezidentlər və onların rəhbərləri arasında paylanılır. Sayca üçüncü olan bu seminarın mövzusu "Kəskin pankreatit"dir. Onun sözlərinə görə, bu günkü seminarda kəskin pankreatitin müalicə və müayinəsində müasir yanaşma metodlarından bəhs edilir. Yəni son zamanlar cərrahi xəstəliklərdə ən çox rast gəlinən kəskin pankreatitin müalicəsində cərrahi müdaxilə deyil, gözləmə taktikasına, konservativ müalicəyə üstünlük verilir.

Professor dr. Mustafa Kerem də çıxışında əsasən son metodlara uyğun müalicənin daha səmərəli aparılması yollarından danışıb. Məruzəçi bu sahə üzrə inkişaf edən ölkələrdə tətbiq olunan ən yeni üsulları seçildiyini qeyd edib və bu barədə rezidentlərə ətraflı məlumat verib.

Məlumat üçün bildirək ki, Türkiyəli professor Mustafa Kerem ATU-nun Tədis Cərrahiyyə Klinikasında bir il müddətinə transplantologiya şöbəsində təmsil olunacaq. O, əsasən qaraciyər cərrahiyyəsi üzrə klinikada həyata keçirilən əməliyyatlarda iştirak edəcək. Anlaşmaya görə professor dr. M.Kerem bir il müddətində universitetimizilə əməkdaşlıq çərçivəsində elmi-tədqiqat işləri aparmaq, ATU- nun rezident və tələbələri üçün mütamadi olaraq elmi-praktik seminarlar təşkil etmək və təlimlər keçirmək niyyətindədir.

"TƏBİB"

# Nümayəndə heyətimiz beynəlxalq konqresə münsiflik ediblər

**Azərbaycan Tibb Universitetinin nümayəndələri Şimali Kipr Respublikasında keçirilən XIV Endoskopik, laporoskopik cərrahiyyə konqresində iştirak ediblər. Aprelin 19-dan 23-dək davam edən tədbirdə universitetimizi ATU-nun Elmi-Tədqiqat Mərkəzinin müdiri, professor Qalib Qarayev, Cərrahi xəstəliklər kafedrasının müdiri, AMEA-nın müxbir üzvü Nuru Bayramov və dosent Müşfiq Həsənov təmsil ediblər.**




Konqresdə dosent Müşfiq Həsənov "Apendikulyar mənşəli hipertetinlər zamanı qarın boşluğunun azonlaşmış hipoxlorid natri məhlulu ilə sanosiyasının effektivliyi" mövzusunda məruzə ilə çıxış edib.

Nümayəndələrimiz eyni zamanda konqresin panel iclaslarında münsiflər heyətinin üzvü qismində universitetimizi təmsil edib.

Qeyd edək ki, bir çox ölkələrin mütəxəssislərini öz ətrafına toplayan bu beynəlxalq konqres Türkiyə Endoskopik Laporoskopik Cərrahlar Dərnəyi və Middle Easters Endoskopik Cərrahiyyə Assosiasiyasının birgə təşkilatçılığı ilə keçirilib.

# Kafedranın rəhbərliyi Rusiyada elmi konfransda iştirak edib

**Rusiya Federasiyasının Ryazan şəhərində "Ali məktəbdə biologiya: elmin, təhsilin aktual sualları və fənlərarası inteqrasiya" adlı elmi konfrans keçirilib.**



Rusiya Federasiyasının akademik İ.Pavlov adına Ryazan Dövlət Tibb Universitetinin rektoru, t.e.d., professor R.Kalinin və Biologiya kafedrasının müdiri, professor O.Bakoveskayanın dəvəti ilə konfransda Azərbaycan Tibb Universitetinin nümayəndə heyəti də iştirak edib. ATU-nun Tibbi biologiya və genetika kafedrasının müdiri, dosent Vaqif Kərimov, dosent Leyla Süleymanova və baş müəllim Aytəkin Həsənova sözügedən beynəlxalq tədbirdə universitetimizi təmsil ediblər.

İki gün davam edən konfrans gündəliyi rəsmi hissədən və 4 bölmədən ibarət olub. "Adaptasiyanın, funksional morfologiyanın və genetikanın aktual suallarının öyrənilməsi" adlı üçüncü bölmədə çıxış edən dosent V.Kərimov Azərbaycan Tibb Universiteti və Tibbi biologiya və genetika kafedrası barəsində geniş məruzə edib.

Konfransda iştirak edən Moskva, Ryazan, Minsk, Tver şəhərlərinin Tibb Universitetlərinin nümayəndələri ATU-nun Tibbi biologiya və genetika kafedrası ilə əməkdaşlıq etmək arzusunda olduqlarını bildiriblər. Belə ki, Moskva şəhəri A.Yevdokimov adına Moskva Stomatoloji Universitetinin kafedra müdiri, professor T.Tatarenko-Kozmina, Rusiya Xalqlar Dostluğu Universitetinin Biologiya və ümumi genetika kafedrasının müdiri, professor M.Azova, Tver Dövlət Tibb Universitetinin Biologiya kafedrasının müdiri M.Petrova gələcəkdə ATU-nun Tibbi biologiya və genetika kafedrası ilə iş birliyi məqsədi ilə qarşılıqlı görüşmələrin keçirilməsinin məqsədəuyğun olduğunu qeyd ediblər.

# Əməkdaşımız beynəlxalq konqresdə çıxış edib

**Azərbaycan Tibb Universitetinin I cərrahi xəstəliklər kafedrasının əməkdaşı, Azərbaycan Bariatrik-Metabolik cərrahlar dərnəyinin sədri t.ü.f.d. Taryel Ömərov piylənmənin idarə olunmasına həsr edilmiş beynəlxalq nəzəri-praktik konqresdə çıxış edib.**




Aprelin 19-da baş tutan tədbir Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM), Piylənmənin Tədqiqi üzrə Avropa Assosiasiyası (EASO- European Association for the Study of Obesity) və ANDOP akademiyası tərəfindən təşkil olunub. Konqresdə dünyada piylənmənin idarə olunması sahəsində ən son elmi araşdırmalar aparan aparıcı mütəxəssislər tərəfindən təlimlər keçirilib.

T.Ömərov bu konqresdə "Bariatrik cərrahiyyə əməliyyat növləri və göstərişləri" mövzusunda çıxış edib.

Beynəlxalq konfransda piylənməyə multidisiplinar yanaşma ortaya qoyulub, qloballaşmaqda olan bu problemin hər bir aspektinə toxunulub. Toplantıda mütəxəssislər piylənmənin profilaktikası, bariatrik və metabolik cərrahiyyə, uşaqların piylənməsi, piylənmənin farmakoterapiyası, ixtisaslaşmış piylənmə ilə mübarizə mərkəzlərinin yaradılması və s. kimi mühüm mövzulara dair müzakirələr aparıblar.

ATU-nun mətbuat xidməti

*Unudulmaz müəllimlərimiz*

**Salih Mustafa oğlu Salihov-110**

# Ləyaqət sahibi

**Hamımız dünyaya təsadüfi gəlsək də qanuna uyğun şəkildə onu tərk edirik, kimi tez, kimi gec. Ulu Tanrının hər bir insana yazdığı taleyi yaşayırıq, nə az, nədə çox. Çox da uzun olmayan insan ömrü bizə əbədi olan sevib-seçdiyi sənətə, həmkarlarına və bu da öz növbəsində insan ömrünü, insan varlığını əbədiləşdirir. Dünyasını dəyişən insan, yaddaşlarda, xatirələrdə yaşayır, anılır, sevilir, ölməzliyə çevrilir.**



Tale üzümüzə güldü, olduğu kimi görünən, göründüyü kimi olan sədaqətli dost, böyük alim, mənəviyyatca saf, peşəsinin vurğunu, sözü ilə əməli bir olan bir şəxsiyyəti bizə elmi rəhbər etdi. Bu qeyri-adi insan, həkim-alim-Salih Mustafa oğlu Salihov idi. İllər keçdikcə daha dərindən hiss edirsən ki, o mənəviyyatca saf, pak bir fenomen idi. Bu gün aramızda olmasa da, unudulası şəxsiyyət deyildi. Keçən 40 ildən çox ayrılıq illəri onun şəxsiyyətinə olan məhəbbətimizi qat-qat artırmışdır. Çünki bu məhəbbət nə vəzifə asılılığı, nə də təmənna üzərində qurulmuşdu. Bu sonsuz məhəbbət ləyaqətli həkimə, ülvi bir şəxsiyyətə olmuşdur.

Azərbaycanın dilbər güşəsi olan Ağdaşda 1909-cu ildə dünyaya göz açan Salih, çox ağır, məşəqqətli uşaqlıq illəri yaşamışdır. O, hələ kiçik yaşlarında valideynlərini itirmiş və qardaş himayəsində böyümüşdür. 20 yaşlı gənc Salihi Bakıya gətirən tale onun həyatında dönüş nöqtəsi olmuşdur.

"Fəhlə" fakültəsinə daxil oan Salih pedaqoji-riyaziyyat təhsili alır və bir neçə il Bakı məktəblərində riyaziyyat müəllimi işləyir. O, yaxşı riyaziyyat müəllimi kimi tanınsa da tale onu amalına doğru aparır.

1939-cu ildə amalına çatan Salih Azərbaycan Tibb İnstitutuna daxil olmuş və ağır müharibə illərinə baxmayaraq böyük əzmkarlıqla təbabət elminin incəliklərini öyrənməyə başlamış və böyük terapevt N.Afonskinin diqqətini cəlb etmişdir. Məhz onun təşəbbüsü ilə gənc Salih 1945-ci ildə institutu bitirən kimi Tibb İnstitutunun hospital terapiya kafedrasına assistent seçilmiş, 1950-ci ildə N.Afonskinin rəhbərliyi ilə "namizədlik" dissertasiyasını müdafiə etmişdir. 1952-ci ildə isə Salih müəllim dünya praktikasında ilk dəfə olaraq ağciyərin irinli proseslərinin müalicəsində penisillini damar daxilinə yeridilməsini tətbiq edib və ilk kliniki təcrübəni öz üzərində həyata keçirib.

Özünü perspektivli həkim-alim kimi göstərən S. Salihov 1954-56-cı illərdə 1 saylı ŞKX-nın baş həkimi işləmişdir. Qısa müddətdən sonra Yəmən Krallığına ezam olunan S.Salihov kral həkimi seçilmiş və islam dininə bağlılığından Məkkəni ziyarəti etmişdir. Qeyd edək ki, vaxtı ilə onun atası Hacı Mustafa da Məkkəni ziyarət etmişdi. Yəmən Krallığından öz kafedrasına dönən Salih doktorluq dissertasiyasını davam etdirir və 1966-cı ildə kafedranın professoru, sonra isə I Hospital terapiya kafedrasının müdiri seçilir.

Bir neçə il Şuşa-Turşsu kurort rayonunda elmi-tətqiqatla məşğul olan Salih müəllim "Turşsuda müalicə ilə əlaqədar olaraq ürək-damar sistemi, xarici tənəffüs və orqanizmin bəzi mübadilə proseslərin vəziyyəti" adlı dissertasiyasında sübut etdi ki, Cənubi Qafqazın təbii-resurs potensialının gücünə görə möhtəşəm müalicə-istirahət mərkəzinə çevrilməyə qadirdir və heç də Şimalı Qafqazın (Kislovodsk, Essentuki istirahət zonalarından geri qalmır.

Ayrı-ayrı illərdə Salih müəllim məktəb və texnikum direktoru, "Naftalan" kurortunun direktoru, Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinin dekanı, Respublikanın baş terapevti, Səhiyyə Nazirliyində terapiya üzrə Attestasiya komissiyasının sədri vəzifələrində çalışmışdır.

Xoş bir təsadüf məni 1967-ci ildə bu müdrik insanla görüşdürdü. O, məni Quba rayonunda kənd həkimlyindən aspiranturaya dəvət etdi. 1967-ci il həyatımda dönüş ili oldu. Əvvəl assistent, sonra dosent kimi düz 52 ildir professor S.Salihovun kafedrasında işləyirəm.

Az yaşadı Salih müəllim. 1976-cı ildə, elə iş otağında əbədiyyətə qovuşdu. Lakin bu qısa müddətdə böyük bir məktəb yaratdı. Onun rəhbərliyilə 10-dan çox doktorluq və namizədlik dissertasiyaları müdafiə edilib.

Professor S.Salihov Respublikanın əməkdar həkimi olmuş, Ağdaş şəhərində bir küçə, rayon xəstəxanası onun adını daşıyır və xəstəxananın həyətində qoyulan bürünc büst onun xatirəsini əbədiləşdirir. Azərbaycan Təbabət Muzeyində onun elm və əmək fəaliyyətinə dair güşə təşkil edilmişdir.

Tale onun sevimli 5 övladını da təbabətə gətirib. Oğlu Yalçın alim-cərrah, və qızı Afaq xanım mama-ginekoloq kimi dünyaları dəyişmişlər. Oğlanları Ərəb və Rauf öz sahələrində layiqli həkimlərdir. Salih müəllimin arzuladığı, lakin həyata keçirə bilmədiyi "Ailə təbabəti" dərsliyini uzun illər həmin kafedraya başçılıq edən alimin böyük oğlu, respublikanın əməkdar həkimi, professor Mustafa Salihov yazmışdır.

İllər keçir, unudulmaz ustad ilbəil bizdən uzaqlaşsa da, biz ona bir az da yaxınlaşırıq. O, bu dünyaya bir daha dönməyəcək, biz isə Allahımızın bizə yazdığı ömrü başa vurub onunla axirətdə görüşəcəyik.

Bu izi özlərinə əbədi yol götürmüş onun ardıcılları, ustad S.Salihovu teztez xatırlayır və onun müqəddəs ruhu qarşısında daima baş əyir.

**Hacı Süleyman Məmmədov,**
*Daxili xəstəliklər kafedrasının dosenti*

---

*Yubiley*

# Əsl insani keyfiyyətləri olan dəyərli əməkdaş



**◆ Beynəlxalq Elmlər Akademiyasının Azərbaycan Bölməsinin vitse-prezidenti, BEA-nın, Avropa Təbiətşünaslıq Akademiyasının, Türk Dünyası Beynəlxalq Araşdırmalar Akademiyasının akademiki, Azərbaycan Respublikasının əməkdar müəllimi, tanınmış əczaçı-alim, ölkəmizin ilk və yeganə qadın əczaçılıq elmləri doktoru, Azərbaycan Tibb Universitetinin Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının müdiri, professor Məhbubə Nəbi qızı Vəliyevanın 70 yaşı tamam olur.**

Gənc mütəxəssis kimi Azərbaycan Tibb İnstitutunun Farmakologiya və toksikoloji kimya kafedrasında saxlanılmış və müxtəlif dövrlərdə baş laborant, assistent, baş müəllim, laboratoriya müdiri, kafedra müdiri vəzifəsinə qədər yüksəlmişdir. O, 1997-ci ildən Azərbaycan Tibb Universitetinin Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının müdiri vəzifəsində çalışır.

M. Vəliyeva 1987-ci ildə Rusiya Federasiyasının Pyatiqorsk Əczaçılıq Akademiyasında Əczaçılıq elmləri namizədi, 1998-ci ildə Rusiya Federasiyasının İ.M.Seçenov adına Moskva Tibb Akademiyasında doktorluq dissertasiyasını müdafiə etmiş və yeganə azərbaycanlı qadın kimi əczaçılıq elmləri doktoru adına layiq görülmüşdür. Professor M.Vəliyeva 3 doktorluq və 24 əczaçılıq üzrə namizədlik dissertasiyasına, 45 magistr dissertasiyasına rəhbərlik etmişdir. 525 elmi işin müəllifi olan M. Vəliyeva 1996-cı ildən Beynəlxalq Əczaçılar Federasiyasının üzvüdür. 2000-ci ildə ona Respublikanın «Əməkdar müəllimi» adı verilmişdir. O, 2005-ci ildə Beynəlxalq Elmlər Akademiyasının Azərbaycan Bölməsinin akademiki seçilmişdir.

2010-cu ildə professor M.Vəliyeva yüksək ixtisaslı kadrların hazırlanması sahəsində səmərəli pedaqoji fəaliyyətinə görə Təhsil Nazirliyinin Fəxri Fərmanı ilə təltif olunmuşdur. 2014-cü ildə Birləşmiş Millətlər Təşkilatının İctimai Mükafatlar İttifaqı professor M.Vəliyevanın tibbə böyük xidmətlərinə görə "Hippokrat" ordeni ilə mükafatlandırmışdır. 2015-ci ildə professor M.Vəliyeva Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyası tərəfindən tibb elminə üstün xidmət etdiyinə görə "İbn Sina" diplomu ilə mükafatlandırılmışdır. Əczaçılıq sahəsində elmi xidmətlərinə görə 2016-cı ildə Beynəlxalq Elmlər Akademiyasının Azərbaycan Bölməsinin diplom və "Qızıl Döş" nişanı ilə təltif olunub, həmin akademiyanın vitse-prezidenti seçilmişdir. 2019-cu ildə ona tibbi kadrların hazırlanması sahəsində uzun müddətli və səmərəli xidmətlərinə, nümunəvi əməyinə və universitetin ictimai həyatında fəal iştirakına görə 70 illik yubileyi münasibətilə Azərbaycan Tibb Universitetinin və Səhiyyə Nazirliyinin Fəxri fərmanı ilə təltif edilib.

Məhbubə xanım, öz səmimiyyəti, təvazökarlığı və təmkinli davranışı ilə kollektivin sevimlisidir. O, əsil insani keyfiyyətləri olan dəyərli əməkdaşdır. Tələbkarlıq və qayğıkeşlik kimi keyfiyyətləri, yüksək peşəkarlığı, işgüzar fəaliyyəti kollektivdə ona dərin hörmət və rəğbət qazandırmışdır. Qayğıkeş ana, cəfakeş nənə, həm də mehriban iş yoldaşı olan Məhbubə xanımı 70 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir, ona möhkəm can sağlığı, gələcək həyatında saf və təmiz illər arzulayırıq.

*Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının kollektivi*

---

# Vitaminlərin təsnifatı

**❍ Vitaminlərin xassələrində, quruluşlarında və funksional qruplarında ümumi oxşarlıq yoxdur. Ona görə də onların təsnifatını aparmaq üçün kimyəvi xassələrindən, quruluşlarından deyil, həll olmalarından istifadə edilir. Bu nöqteyi-nəzərdən vitaminlər yağda həll olan və suda həll olan vitaminlərə bölünür.**




Elə maddələr var ki, vitaminlərdən fərqli olaraq, orqanizm tərəfindən sintez olunur və vitaminlərə xas olan funksiyalar yerinə yetirir. Belə maddələrə vitaminəoxşar, vitaminəbənzər maddələr deyilir. Bunlara xolini, ubixinonu, kornitini, para-aminbenzoy turşusunu və sair birləşmələri misal göstərmək olar.

Yağda həll olan vitaminlərə A vitamini və ya retinol, D vitamini və ya kalsiferol, E vitamini və ya tokoferol və K vitamini və ya naftoxinon aiddir.

A1 vitamini kərə və yaxud retinol orqanizmdə β-karotinin parçalanmasından alınır. Bu zaman bir molekul β-karotindən iki molekul A1 vitamini əmələ gəlir.

Terpenlərin xüsusi növünə aid olan β-karotin kərə yağda, pomidorda və kökdə yayılmışdır.

A1 vitamini çatışmadıqda insan "toyuq korluğu" adlı göz xəstəliyi ilə xəstələnir.

A vitamini kərə yağda, yumurta sarısında, qarciyərdə, balıq yağında, qaymaqda, istiotda, kökdə çox yayılmışdır.

D qrupu vitaminlərinə D1, D2, D3, D4, və D5 vitaminləri aiddir. Bunlardan isə D2 (kalsiferol və ya erqokalsiferol) və D3 (xolekalsiferol) vitaminləri daha əhəmiyyətlidir.

D vitamini orqanizmdə fosfor və kalsium mübadiləsini tənzimləyir, onların bağırsaqlardan sorulmasına kömək edir.

Orqanizmdə D vitamini çatışmadıqda kalsium və fosfor mübadiləsi pozulur, sümük yumşalaraq davamsız və kövrək olub, formasını dəyişir, baş, qarın böyük, ayaqlar əyri olur. Belə xəstəlik raxit xəstəliyi adlanır.

D vitamini kərə yağda, yumurta sarısında, kürüdə, süddə, zeytun və qarğıdalı yağlarında olur.

E qrupu vitaminlərinə tokoferollar da deyilir.

E vitamini oksidləşməyə qarşı olan, yəni antioksidant olan təbii maddədir. O orqanizmdə müxtəlif vacib maddələri, o cümlədən lipidləri oksidləşərək, dəyişikliyə məruz qalmaqdan qoruyur.

E vitamininin avitaminozu zamanı nəsiltörətmə qabiliyyətinin itməsi nəticəsində sonsuzluq yaranır.

Tokoferollar günəbaxan, pambıq, qarğıdalı yağlarında çox, ətdə, piydə, yumurtada, süddə isə ondan az yayılmışdır.

**K qrupu vitaminləri.** Bu vitaminlərin iki növü var. Bunlardan biri filloxinonlar (K1 vitaminləri), ikincisi isə menaxinonlar (K2 vitaminləri) adlanır.

K qrupu vitaminləri qanın normal laxtalanma xassələrinə kömək eləyir.

K1 vitamini kələmdə, yemişdə, gicitkanda, K2 vitamini isə heyvanlarda çox olur.

**Faiq HƏSƏNOV,**
*Ümumi və toksikoloji kimya kafedrasının dosenti*

# TEC-in konfranslarında

**Aprelin 24 də Terapevtik və pediatrik propedevtika kafedrasında TEC-in konfransı keçirilib.**



Konfransda professor və müəllim heyəti, tələbələr iştirak ediblər. Elmi işlərin mövzuları propedevtika fənninə uyğun şəkildə planlaşdırılaraq qruplaşdırılıb və məruzələr edilib. Elmi-tədqiqat işinə cəlb edilən 55 tələbədən 32 nəfəri məruzələrlə çıxış edib. Müəllim və tələbələrin qiymətləndirilməsinə əsasən 12 tələbənin elmi-tədqiqat işi fakültə TEC-nin yekun konfransına tövsiyə edilib.

Kafedra müdiri, professor İbrahim İsayev məruzələrlə çıxış edən tələbələrə, elmi rəhbərlərinə təşəkkür edib. O, tələbələrin daha da fəal və məsuliyyətlə çalışmaqlarını qeyd edib və onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Konfransın sonunda münsiflər heyətinin və tələbələrin qiymətləndirilməsinə görə yüksək yerləri tutan 10 tələbəyə "Uşaq xəstəliklərinin propedevtikası" dərsliyi təqdim edib.

**Aprelin 19-da Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsinin Tələbə Elmi Cəmiyyətinin konfransı keçirilib.**






Konfransı açan tibb xidməti baş leytenantı Sevinc Orucova bildirib ki, artıq Hərbi tibb fakültəsinin tələbə və kursantları öz çıxışları ilə istər ölkəmizdə, istərsə də xaricdə keçirilən beynəlxalq konfranslarda universitetimizi layiqincə təmsil edib, mükafatlar alıblar. Bunun sevindirici hal olduğunu deyən S.Orucova, öz fikirlərini konfrans iştirakçıları ilə bölüşmək üçün sözü fakültənin rəsi, tibb xidməti polkovniki Çingiz Əlləzova verib.

Ç.Əlləzov hər il ənənəvi olaraq keçirilən bu konfransın əhəmiyyətindən danışıb. Bildirb ki, bu konfrans fakültənin kursant və tələbələrini alimliyə aparan bir yoldur. Onların arasında gələcəyin tanınmış alimlərinin yetişəcəyinə əminliyini söyləyib.

Məruzəçi tibb xidməti polkovniki, Sərhəd Qoşunlarının tibb xidməti rəisi Kənan Yusifzadə isə öz çıxışında hərbi həkim peşəsinin olduqca çətin, məsuliyyətli və şərəfli olduğunu bildirib. Bu baxımdan hərbi həkimlərin mülki həkimlərdən bir pillə yuxarıda dayandığını qeyd edib. K.Yusifzadə də bu günün kursantları arasında gələcəkdə millətinə, dövlətinə gərəkli alimlərin yetişəcəyinə böyük ümid bəslədiyini vurğulayıb.

Dövlət Himni səsləndirildikdən sonra Silahlı Ordumuzun keçdiyi şərəfli yolu əks etdirən videogörüntülər nümayiş etdirildikdən sonra tələbə və kursantlar elmi məruzələrlə çıxış edib.

İbrahim Heydərlinin "Ürək xəstəliklərinin epidemiologiyası", "Orxan Hüseynovun "Narahat ayaqlar sindiromu. Müalicəsində müasir yanaşma", Şamxal Hüseynovun "Crush sindromu", Varis Ələsgərlinin "Ezofaqal divertikul. Parabronxal divertikul", Məftun Sadıqlının "Hərbi xidmətə yararsızlığa məhdudiyyətlərin tibbi aspektləri", "Hüseyn Həsənovun "B12 defisitli anemiya və müasir baxış", "Ayxan Səfərovun "Anadangəlmə pilorostenoz erkən aşkarlanması və müqayisəli əməliyyatı", İlkin Həsənlinin "Kimya terapiyada müasir yanaşmalar", Ağanur Cavadovun "Revmotoidli artritdə anti- CCP-nin spesifkliyi", Dursun Əliyevin "Reablitasiya dönəmində olan pasiyentdə ağrı sindromu və bu sindromun müasir yanaşma metodları", Emin Əliyevin "Kardiorenal sindrom", Tural Rəhmanlının "Diabetik neyropatiya", Orxan Babayevin "Şəxsi heyət arasında KRX-nin epidemioloji xüsusiyyətləri", Əmrah Hüseynovun "Diabetik ayaqlarda irinli – nekrotik ağırlaşmalar", Musa Həsənovun "Hamiləliyin ektopiyası", Orxan Həsrətovun "Reynaud fenomeni" və Elvin Tağıyevin "Mədə xorasının etiopatogenizi, diaqnostikası, müalicəsi" mövzusunda etdikləri çıxışlar iştirakçılar tərəfindən maraqla qarşılanıb. Konfrans geniş disskusiya, sual-cavab əsnasında işini başa çatdırıb.

**Aprelin 23-də Azərbaycan Tibb Universitetinin Şüa diaqnostikası və şüa terapiyası kafedrasında Tələbə Elmi Cəmiyyətinin konfransı keçirilib.**

Konfransda qeyd olunub ki, bu il kafedradan TEC-ə 23 tələbənin elmi işi təqdim olunub.

Tədqiqatlar müasir dövrdə aktuallıq kəsb edən xəstəliklərin diaqnostikası və müxtəlif müayinə metodlarının imkanlarının müqayisəli araşdırılmasına yönəldilib.

Konfransda tələbələrin çıxışları dinlənilib və 10 fərqli çıxış TEC-in yekun konfransına təqdim edilib.



# Universitetin imtiyazlı tələbələri ödənişsiz əməliyyat olunub

**Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəylinin təşəbbüsü ilə universitetdə təhsil alan tələbələr aprelin əvvəlindən etibarən ödənişsiz müayinə olunublar.**



Tələbələr arasında müayinə məqsədilə universitetin Tədris Cərrahiyyə Klinikasına müraciət edənlərin sayı demək olar ki, daha çoxdur. Klinikanın oftalmologiya şöbəsinin müdiri Qurban İsmayılovun verdiyi məlumata görə, 16 gün ərzində 595 tələbə tam müayinə olunub: "Hörmətli rektorumuz, professor Gəray Gəraybəylinin təşəbbüsü ilə müayinə olunan tələbələr arasında Qarabağ müharibəsi veteranları, əlilləri, şəhid və valideyn himayəsindən məhrum olmuşların övladları bu gün keçirilən aksiyada ödənişsiz əməliyyat olunublar".

Dünya şöhrətli oftalmoloq-alim Zərifə Əliyevanın anadan olmasının ildönümü münasibətilə aprelin 26-da keçirilən aksiyada 14 tələbə əməliyyat olunub. Onlar arasında refreksiya anomaliyalı olan xəstələr, yəni miopiya, mürəkkəb miopik astikmatizm, qarışıq astikmatizm olan xəstələr üstünlük təşkil ediblər.

Q.İsmayılovun bildirdiyinə görə, xəstələr əməliyyatdan sonra təkrar müayinə olunublar. Onların ən aşağı görmə qabiliyyəti 80 faiz, ən yuxarı görmə qabiliyyəti isə 100 faiz təşkil edib.

Şöbə müdiri bu aksiyanın sonuncu olmayacağını, ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə də davam edəcəyini vurğulayıb.

Qeyd edək ki, bu aksiyanın təbiq dairəsi təkcə universtetin tələbələri ilə məhdudlaşmayıb. Aksiyadan həmçinin, Qarabağ döyüşlərində iştirak edənlərin ailə üzvləri də yararlana bilib.

Aksiya zamanı Qarabağ qazisi Azər Abbasəliyevin anası Əzizə Vəlişova da gözündən əməliyyat olunub. Uğurlu əməliyyata və ailə üzvünə göstərilən diqqət və qayğıya görə A.Abbasəliyev ölkə başçısı İlham Əliyevə, universitetin rektoru, professor Gəray Gəraybəyliyə və universitetin Tədris Cərrahiyyə Klinkasının şöbə müdiri Qurban İsmayılova dərin təşəkkürünü bildirib. Qarabağ qazisinin anası Ə.Vəlişova əməliyyatdan sonra özünü yaxşı hiss etdiyini bildirib. "Çox sağ olun, həkim! Əlləriniz var olsun" - deyərək həkimə xüsusi minnətdarlığını çatdırıb.

# ATU-nun mütəxəssisləri beynəlxalq tədbirlərdə iştirak ediblər

**Ümumi və toksikoloji kimya kafedrasının müdiri, professor Eldar Qarayev və həmin kafedranın assistenti Kəmalə Bədəlova Dubayda keçirilən iki beynəlxalq tədbirdə- "NanoTexnologiyalar üzrə 6-cı Qlobal Konqres və Sərgi (GNCE-2019)" və "Xərçəng tədqiqatları və terapiyası üzrə 6-cı Ümumdünya Sammiti"ndə (WSCRT-2019) iştirak ediblər.**




Assistent K.Bədəlova "NanoTexnologiyalar üzrə 6-cı Qlobal Konqres və Sərgi (GNCE-2019)" nin moderatoru olaraq konqresin açılışını edib və sona qədər konfransın gedişini idarə edib.

K.Bədəlova eyni zamanda, "Sidikdə titanium dioksid ($TiO_2$) nanohisəciklərinin təyini» mövzusunda çıxış edib. Bundan başqa Eldar Qarayev və Kəmalə Bədəlova "Morus L.Alba bitkisindən xərçəng əleyhinə maddənin alınması və identifikasiyası" mövzusunda poster məruzə nümayiş etdiriblər. Bu tədqiqat işi Almaniyadan olan Neukirchen xüsusi klinikasının doktoru John İonescunun böyük marağına səbəb olub və gələcək əməkdaşlıq barəsində razılıq əldə edilib.

Konqres və sammitdə dünyanın 15 ölkəsinin - Almaniya, İtaliya, Yaponiya, ABŞ, Meksika, İraq, Misir, Malayziya, Afrika dövlətləri, Çin, Sinqapur, Şimali Koreya və digərlərinin aparıcı elmi mərkəzlərinin və ali təhsil ocağının alimləri iştirak ediblər. Tədbirdə mütəxəssislərin elmi-tədqiqat işlərinin nəticələri haqqında maraqlı oral və poster məruzələri dinlənilib.

# Yeniyetmə üzərində əməliyyat uğurla icra edilib

**Azərbaycan Tibb Universitetinin Uşaq cərrahlığı kafedrasında 12 yaşlı uşaq üzərində aparılan əməliyyat uğurla icra edilib.**



Tədris Cərrahiyyə Klinikasının baş həkimi, Uşaq cərrahlığı kafedrasının müdiri, professor Ramiz Poluxovun sözlərinə görə, xəstə ağır vəziyyətdə xəstəxanaya daxil olub: "Xəstədə hərarətin yüksək olması, tənginəfəslik, döş qəfəsində kəskin ağrı ilə septiki müşahidə etdik. Döş qəfəsinin KT müayinəsinə əsasən, uşağa bronxogen sistin irinləməsi diaqnozu qoyuldu. Aparılan intensiv əməliyyata hazırlanarkən xəstədə sağ tərəfli torakoskopiya, irinləmiş bronxogen sistin drenajı əməliyyatı icra olundu. Əməliyyat zamanı sist boşluğundan 400 ml-ə qədər irin xaric oldu".

Professor Ramiz Poluxovun bildirdiyinə görə, bronxogen və enterogen sistlər "broncho pulmonary foregut malformation" termini altında birləşdirilib, eyni embrioloji kökdən yararlanan inkişaf qüsurlarıdır. Bu sistlər vaxtında aşkar olunaraq xaric edilməlidir. Lakin vaxtında müəyyən edilmədikdə sistin irinləməsi kimi fəsadlara və xəstələrin bir neçə dəfə cərrahi müdaxiləyə məruz qalmasına gətirib çıxarır.

**ATU-nun mətbuat xidməti**

# QƏLƏBƏLƏRİMİZ DAVAM EDİR

**ATU-nun tələbələri idmanın badminton növü üzrə XIV Respublika Universiadasında iştirak ediblər.**



Universitetimizin oğlanlardan ibarət olan yığma komandasının üzvləri Thomas Tose, Kardasal Nazar, Elçin Zeynalov, Alvin Sayı – II yeri qazanıblar. Məşqçi Nərgiz Mehdiyevanın qızlardan ibarət komandası isə– Gülarə Quliyeva, Esmira Sadıqova, İlahə Əzizbəyli – III yeri tutublar.

Voleybol üzrə kişilər arasında baş tutan yarışlar ATU-nun idman kompleksində keçirilib. Komandamızın Məşqçisi Cəlaləddin Babayevin yetirmələri olan Əlirza Kərimi (kapitan), Turac Cəfəri, Hüseyin İkrami, Pirəlifət Saalar, Dadrəs Həsən, Xani Əli, Dənizxan Şahin, Haci Maxsudov, Arman Nəzifi, Mehrivar Həsən, Hamed Cahangiri – çempion adını qazanıblar.

ATU-nun voleybol üzrə qadınlardan ibarət yığma komandası isə – Nərgiz Həsənova (kapitan), Firangiz Abasova, Zöhra Məmmədova, Türkan Ziyadova, Aluç Gamza-Dilara, Aluç Gözde – İlayda, Esmira Sadıqova, Jila Ərşad Cəfər, Çiçək Zülfüqarlı, Aytən Quliyeva və Gülarə Quliyeva məşqçi Şükür Bayramovun rəhbərliyi altında oyunlarda möhtəşəm ustalıq nümayiş etdirərək I yerə sahibləniblər.

Biz bir daha ATU-nun idman klubunun adından bu əzmkar qələbə münasibətilə tələbələrimizi və onların məşqçilərini təbrik edirik!

**K.KƏBƏRLİNSKİ,**
*"Təbib" idman klubunun sədri, professor*

# II Müalicə-profilaktika fakültəsinin tələbələri xəstə uşaqları sevindirdi

**ATU-nun II Müalicə profilaktika fakültəsinin tələbələri Milli Uşaq Onkologiya Mərkəzində müalicə olunan uşaqlar üçün xeyriyyə aksiyası təşkil ediblər.**



Fakültənin III və IV kurs tələbələri uşaqları ziyarət edib, onlar üçün klounun iştirakı ilə əyləncəli tamaşa nümayiş etdiriblər. Sağlıq durumuna görə tamaşanı izləyə bilməyən uşaqların palatası ayrıca ziyarət olunub. Xəstə uşaqlara müxtəlif hədiyyələr, rəngarəng oyuncaqlar, rəngli kitab və qələmlər təqdim olunub. Tələbələr balacaların maraqlı və əylənləcəli vaxt keçirməsinə yardımçı olublar.

Ziyarətdə tələbələrlə yanaşı, ATU-nun II Müalicə profilaktika fakültəsinin dekan müavini Arzu Bəydəmirova da iştirak edib. Universitetimizin təmsilçiləri aksiyanın keçirilməsinə göstərdikləri dəstəyə görə Milli Uşaq Onkoloji Mərkəzin rəhbərliyinə və xüsusilə şöbə müdirinə, baş tibb bacısına təşəkkürlərini bildiriblər.

# Məzunumuz xüsusi beynəlxalq mükafata layiq görülüb

**Azərbaycan Tibb Universitetinin məzunu Elnur Qarayev nüfuzlu xarici şirkətin xüsusi mükafatına layiq görülüb. O, Fransanın əczaçılıq və kosmetik laboratoriyası, tibbi homeopatiya üzrə dünya liderlərindən sayılan "Veleda" şirkətinin mükafatını alıb.**



Şirkət tibbi homeopatiya sahəsində aparılan ən yaxşı elmi-tədqiqat işi ilə bağlı müsabiqə keçirib. Qaliblər pul mükafatı və sertifikatla yanaşı, "Veleda" laboratoriyasında təcrübə toplayıb gücləri sınamaq imkanını da qazanıblar.

Elnur Qarayev müsabiqəyə "Dağ andızı bitkisinin fitokimyəvi və farmakoloji tədqiqi" dissertasiya işini təqdim edib. İş altı nəfərdən ibarət münsiflər heyətinin dərin marağına və heyrətinə səbəb olduğundan, məxsusi olaraq azərbaycanlı alim üçün yeni nominasiya təsis edilib. Nəticədə ATU-nun məzunu "Münsiflər heyətinin xüsusi mükafatı"na layiq görülüb.

Qeyd edək ki,bu, Elnur Qarayevin ilk uğuru deyil. O, 2017-ci ildə Fransanın Eks-Marsel Universitetində əczaçılıq üzrə fəlsəfə doktoru elmi adına layiq görülüb.

# Tələbələrin intellektual yarışı keçirilib

**ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə universitet tələbələrinin intellekt yarışı keçirilib.**





Komitə sədri Elvin Kərimli bildirib ki, onun rəhbərlik etdiyi təşkilat tələbələrin asudə vaxtlarını səmərəli keçirməsi üçün bu tipli intellektual oyunlar və bir- birindən maraqlı tədbirlər ardıcıl olaraq keçirilir. E. Kərimli keçirilən bu tədbirin ötən il "Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyinə" həsr olunmuş intellektual yarışın davamı olduğunu qeyd edib.

18 komandanın iştirak etdiyi yarış iki mərhələdə keçirilib.

I yeri "Assimilant" komandası (Tural İbrahimli, Coşqun Adilov, Elvin Zeynalov, Kamran Əliyev), II yeri "Tetrasticha" komandası (Millət Hacıyev, Fəyyaz Aslanov, Fidan Fətizadə, Sara Fətəli), III yerə isə "Apoptoz" komandası (Əmin Hüseynli, Mircavad Babayev, Etibar Hüseynov) tutublar. Qaliblərə sertifikatlar və hədiyyələr verilib.

Sonda E.Kərimli qaliblərə və yarışın təşkilində fəallıq göstərənlərə - THİK-in büro üzvlərinə, Cavid Əliyevə, Sərxan Cəfərliyə, Vüsalə Məhərrəmli, Sona Məmmədovaya, Həsən Məmmədova, Qaysar Şabanova, Nihad Novruzova və fakültə sədrləri Ella Qocayevaya, Rəşad Məmmədliyə, Cavid Mustafazadəyə, Ləman Pirməmdovaya təşəkkürünü bildirib. Onun sözlərinə görə, gələcəkdə də bu cür tədbirlər davam etdiriləcək.

## Allah rəhmət eləsin!

Qidalanma və kommunal gigiyena kafedrasının kollektivi kafedranın əməkdaşı Cəmilə Ağamalıyevaya əmisi oğlu

**Fəqan Quliyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

II uşaq xəstəlikləri kafedrasının kollektivi tibb elmləri doktoru Hüseynağa Qurbanova əzizi

**Vüqar Məhərrəmovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının əməkdaşları kafedranın dosenti Kamran Babayevə əmisi

**Mais Babayevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bioloji kimya kafedrasının kollektivi kafedranın nəzdində elmi-tədqiqat laboratoriyasının laborantı Gülnarə Xudiyevaya anası

**Rəfiqə xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bioloji kimya kafedrasının kollektivi kafedranın dosenti Arzu xanım Əyubovaya anası

**Xavər xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bioloji kimya kafedrasının kollektivi kafedranın laborantı Mehriban xanım Ağayevaya əzizləri

**Xuraman xanımın və Vaqifin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bioloji kimya kafedrasının kollektivi kafedranın laborantı Kəmalə Məmmədovaya dayısı

**Nazim İbrahimovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

## Etibarsız sayılır

I müalicə-profilaktika fakültəsinin III kurs, $167^{a}$ qrup tələbəsi Dağ Mehmet Halil oğlunun adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin III kurs, $167^{a}$ qrup tələbəsi Salmanov Cavadağa İlqar oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin III kurs, $167^{a}$ qrup tələbəsi Qasımova Turə Elşad qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin VI kurs, $72^{b}$ qrup tələbəsi Novruzov Xaliq Bəxtiyar oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

İctimai səhiyyə fakültəsinin VI kurs, $662^{c}$ qrup tələbəsi Şıxaliyev Elçin Nahid oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin II kurs, $317^{a-10}$ qrup tələbəsi Kazımlı Nərmin Famil qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin II kurs, $117^{i-4}$ qrup tələbəsi Namariq Alhelalın adına verilmiş pasport itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin III kurs, $163^{b}$ qrup tələbəsi Mirzəyeva Nərgiz İlham qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin I kurs, $418^{a-5a}$ qrup tələbəsi Mahammad Hosein Tohidi Jafar oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin IV kurs, $12^{a}$ qrup tələbəsi Əlizadə Nəsibə Alik qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Hərbi tibb fakültəsinin III kurs, $1126^{b}$ qrup tələbəsi İsrəfilov İsrəfil Pirverdi oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Hərbi tibb fakültəsinin III kurs, $1126^{b}$ qrup tələbəsi Məmmədov Həsən Azər oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - $98^{c}$
2-ci mərtəbə,
Tel.: 595-24-97
tibibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 2200